# Üzeyir sənəti, Üzeyir dünyası

Oktyabrın 1-i ölkəmizdə Beynəlxalq Musiqi Günü kimi qeyd olunmuşdur. Azərbaycan musiqisinin inkişafında Üzeyir Hacıbəyli müstəsna rol oynamışdır. Bu böyük sənətkar həmçinin Şərq və Qərb musiqi mədəniyyətinin qarşılıqlı əlaqəsi prosesinə də təkan vermişdir. Üzeyir bəyin əsərləri dünya mədəniyyətinin qızıl fonduna daxil omuşdur. O, 1885-ci ildə ziyalı ailəsində dünyaya göz açmışdır. Dahi bəstəkarın anadan olduğu Şuşa bütün Qafqazda musiqi mərkəzi kimi tanınırdı. Çünki burada bir çox istedadlı musiqiçilər yetişmişdir. Azərbaycan professional musiqi sənətinin və milli operamızın banisi Üzeyir Hacıbəyli 1899-cu ildə Qori Müəllimlər Seminariyasına daxil olmuşdur. Burada təhsil aldığı zaman, dünya musiqi mədəniyyətinin klassiklərinin əsərləri ilə yaxından tanış olur və bariton alətlərində çalmağı öyrənir, simli və nəfəsli orkestrlərdə ifalar edir, xorda oxuyurdu.

Üzeyir bəyin dövrü mətbuatda da fəaliyyəti genişdir. “Həyat”, “İrşad”, “Tərəqqi”, “Həqiqət”, “İqbal” qəzetlərində, “Molla Nəsrəddin” jurnalında satirik məqalə və felyatonlarla çıxış edirdi. Pedaqoji fəaliyyəti ilə bərabər, musiqi ilə ciddi məşğul olur, Azərbaycan xalq musiqisinin dərindən öyrənir, dahi Füzulinin poeması əsasında “Leyli və Məcnun” operasını yazır.Qeyd edək ki, Azərbaycan opera musiqisi “Leyli və Məcnun” əsərindən başlanır.

Üzeyir Hacıbəylinin birinci operası uğur qazandıqdan sonra 1909-1915-ci illərdə bir sıra operalar yazır, “Şeyx Sənan”, Rüstəm və Zöhrəb”, “Şah Abbas və Xurşidbanu”, “Əsli və Kərəm”, “Harun və Leyla” əsərlərində böyük sənətkar “Leyli və Məcnun” modelindən istifadə edir. Üzeyir bəy Hacıbəyli həm də dramaturq kimi Azərbaycan ədəbiyyatı tarixində böyük rol oynamışdır. O, Azərbaycanda ilk musiqili komediya janrının müəllifidir. O, Sankt-Peterburqda özünün şah əsəri olan “Arşın mal alan” musiqili komediyasını tamamlayır.

“Arşın mal alan”ın səhnə həyatı çox zəngin olmuşdur. 1913-cü il oktyabrın 25-də əsərin premyerası Bakıda Tağıyev teatrında keçirilir və 1938-ci ildə isə əsər Moskvada Azərbaycan incəsənəti dekadasında göstərilir. Əsər dəfələrlə ekranlaşdırılır, qramplastikalara yazılır.

Üzeyir Hacıbəylinin Azərbaycanda musiqi təhsilinin yaranmasında da müstəsna rolu var. O, azərbaycanlı uşaqlar üçün musiqi məktəbləri təşkil etmiş, Azərbaycan dövlət türk məktəbinin yaradıcısı olmuşdur. Texnikumun ilk müdiri də Üzeyir Hacıbəyli olmuşdur.

Dahi sənətkarın 30-cu illərdə yazdığı “Koroğlu” operası, demək olar ki, Azərbaycan opera sənətinin parlaq bir mərhələsidir. Əsər 1937-ci il aprelin 30-da tamaşaya qoyulur. «Koroğlu» operası Üzeyir bəyin yaradıcılığının zirvəsi sayılır. Bu əsər Azərbaycan musiqi mədəniyyətinin inkişafını, tərəqqisini və çiçəklənməsini göstərir, Zəngin milli musiqi ənənələrinə əsaslanaraq bəstəkar bu operada xalq prinsiplərini yeni klassik bəstəkarlıq formaları ilə üzvi surətdə birləşdirə bilir. Koroğlu monumental xalq qəhrəmanlıq operasıdır. Onun əsasını klassik musiqili səhnə janrları-xorları, ariyaları, vokal ansamblları, balet fraqmentləri təşkil edir.

“Koroğlu” Moskvada 1938-ci və 1959-cu illərdə Azərbaycan incəsənəti dekasında, 1965 və 1975-ci illərdə “Qafqaz ölkələrinin musiqi baharında” böyük uğurlar qazanmışdır.

Üzeyir bəy eyni zamanda bir sıra istedadlı bəstəkar və musiqişünaslar yetişdirmişdir. Azərbaycan Bəstəkarlar İttifaqının yaranması da Üzeyir bəyin adı ilə bağlıdır. Ömrünün axırına qədər Bəstəkarlar İttifaqının sədri vəzifəsində çalışmış, ittifaqın işinə böyük qüvvə sərf etmişdir.

**Aslan CƏLİLOV.**

# Qəbələ Turizm İnformasiya Mərkəzi

Mədəniyyət və Turizm Nazirliyinin strukturuna daxil olan Qəbələ Turizm İnformasiya Mərkəzi 13.07.2015-ci ildən fəaliyyət göstərir. Mərkəz tərəfindən yalnız yerləşdiyi Qəbələ rayonu deyil, həmçinin fəaliyyət dairəsində olan region barədə də iş aparılır. Mərkəzin əsas məqsədi regionda daxili turizmin inkişaf etdirilməsi, yerli və xarici turistlərin bölgəyə cəlb olunması, informasiya texnologiyaları vasitəsilə ölkəmizin bu regionunun turizm potensialı haqqında bütün məlumatları dünyanın hər bir nöqtəsinə çatdırmaqdır.

Həmçinin Mərkəzin işində effektliyin artırılması məqsədilə fəaliyyət planı hazırlanmışdır. Qəbələ Turizm İnformasiya Mərkəzi ölkəmizdə təşkil olunan beynəlxalq turizm sərgiləri ilə yanaşı, xaricdə keçirilən sərgilərdə də iştirak edərək təcrübəsini genişləndirir.

Qəbələ Turizm İnformasiya Mərkəzi tərəfindən yerli və xarici turistlərin məlumatlandırılması məqsədilə müvafiq fəaliyyətlər həyata keçirilir. Belə ki, turistlərə aidiyyəti xidmətlərin göstərilməsi ilə bağlı İnformasiya Mərkəzi həftənin bütün günləri fəaliyyət göstərir, Mərkəz tərəfindən müxtəlif dillərdə reklam-çap məhsulları hazırlanır, turistlərə informasiya verilməsi ilə əlaqədar internet, telefon və əməkdaşlar tərəfindən birbaşa ofisdə xidmət göstərilir, həmçinin əməkdaşların xarici dil biliklərinin daim artırılması üzrə tədbirlər görülür. Bununla yanaşı, turistlərin müvafiq mehmanxanalarda yerləşdirilməsini, nəqliyyat xidmətini və yerli bələdçilərlə təmin edilməsini, həmçinin ekskursiyalar təşkil edir.

**«Qəbələ».**

# "Qəbələ" "Xəzər Lənkəran"a böyük hesabla qalib gəldi

Topaz Premyer Liqasında VII tura "Qəbələ"-"Xəzər Lənkəran" matçı ilə yekun vurulub. Altı qolun vurulduğu oyunda komandamız 6:0 hesablı qələbə qazanıb. Hakimin start fiti səslənən kimi hesabı Dodo açıb. İlk 10 dəqiqənin tamamında Fakundo Pereyra oyunda hesabı artırmışdır. 45-ci dəqiqədə rəqib qapısını yol tapan Aleksey Qay birinci hissənin 3:0 hesabı ilə bitməsinə səbəb olub. 76-cı dəqiqədə Aleksey Antonov fərqi 4 topa çatdırıb. 3 dəqiqə sonra Fakundo Pereyra beşinci qolu vurub. Son nöqtəni isə 89-cu dəqiqədə Ermin Zets qoyub.

# Təbrik edirik



*Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin kollektivi mərkəzin reanimasiya şöbəsinin müdiri Vahid Babayevi 60 illik yubileyi münasibətilə təbrik edir, ona bu şərəfli və çətin işində uğurlar arzulayır.*

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 29 noyabr 1997-ci il tarixli 26 saylı qərarla Zarağan kənd sakini **Çələbiyeva Zərif Nühəl qızının** adına verilmiş JN-250F (kod 40608018) olan **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 may 1998-ci il tarixli 10 saylı qərarla Quşlar kənd sakini **Məlikov Tahir Feruz oğlunun və ailə üzvlərinin** adına verilmiş JN-010B nömrəli (kod 40609018) olan **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti, 9 saylı Ərazi İdarəsi tərəfindən **Rzayev Xudaqulu Əhət oğlunun** adına verilmiş 14 fevral 2014-cü il tarixli Seriya RX № 0316736 qeydiyyat nömrəsi 1914001101 olan **Hüquqların Dövlət Qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış** və reyestr nömrəsi 406013008271, seriya № AA002393 tərtib edilmə tarixi 14.02.2014 olan **Torpaq sahəsinin plan və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti, 9 saylı Ərazi İdarəsi tərəfindən **Rzayev Ramin Əhəd oğlunun** adına verilmiş 14 fevral 2014-cü il tarixli Seriya RX № 0316738 qeydiyyat nömrəsi 1914001102 olan **Hüquqların Dövlət Qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış** və reyestr nömrəsi 406013007745, Seriya № AA002394 tərtib edilmə tarixi 14.02.2014 olan **Torpaq sahəsinin plan və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası ƏMDK Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzinin 9 saylı Qəbələ Layihə-Tədqiqat İdarəsinin kollektivi iş yoldaşları

**ELMİR MAQSUDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və əzizlərinə dərin hüznlə başsağlığı verirlər.

---

Nurəngiz Soltanova ailə üzvləri ilə birlikdə **Rövşən Maqsudova,** oğlu

**ELMİR MAQSUDOVUN**

vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Redaktor O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi: Q. C. Səmədov.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir. Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.